*Elnur Tahir oğlu ƏLƏKBƏROV*
*Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı*
*Email: elekberov.elnur78@mail.ru*

# ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YAXŞILAŞDIRILMASINDA YAŞIL İQTİSADİYYATIN ROLU

**_Xülasə_**

Tədqiqatın əsas məqsədi Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsində "yaşıl" iqtisadiyyatın rolu və əhəmiyyətinin araşdırılmasından ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi "yaşıl" iqtisadiyyatın inkişaf strategiyasının öyrənilməsi, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq təsərrüfatı və müəssisələrinin bu modelə inkişaf xüsusiyyətlərinin aşkar edilməsindən ibarətdir.

***Açar sözlər: yaşıl iqtisadiyyat, əhali, həyat səviyyəsi, gəlirlər, bərpa olunan enerji, ətraf mühit.***

***

Aparılan araşdırmalar göstərir ki, dünyada insan yarandığı andan yaşamaq üçün mübarizə aparmış, həyat səviyyəsini yaxşılaşdırmaq üçün daima axtarışlarda olmuş, yaşamaq üçün müxtəlif istehsal vasitələri yaradaraq iqtisadi fəaliyyətlə məşğul olmuşdur. Yarandığı gündən baş verən Sənaye İnqilabına qədər olan dövrdə insanlar öz fəaliyyətiləri ilə ətraf mühitə daha az ziyan vurmuşdur. İnsanların sağlam və xoşbəxt yaşaması onların təbiət, ətraf mühit və inkişaf arasında tarazlı münasibətləri qoruyub saxlamasından asılıdır.

Keçən əsrin ortalarından yüksək sənaye inkişafının başlaması və ölkələr arasında rəqabətin güclənməsi, asılı enerji resurslarından istifadə səviyyəsinin yüksəlməsi və kənd təsərrüfatında daha çox istehsal üçün müxtəlif zərərli və zərərsiz texnologiyalara üstünlük verilməsi, ətraf mühitə daha ciddi ziyan vurmaqla yaranan ekoloji problemlər insanları mütəmadi olaraq narahat etməyə və baş verən iqlim anomaliyalarının bununla əlaqəli olduğunu düşünməyə vadar etdi. Qeyd edək ki, dünyada baş verən qlobal iqlim dəyişikliyi problemi həm ekoloji, həm də inkişaf problemi olmaqla insan cəmiyyətinin üzləşdiyi ümumi problemə çevrilmişdir. Atmosferə atılan istilik effekti yaradan qaz emissiyalarının həcminin yüksəlməsi temperaturun illik normadan çox artmasına və şirin su ehtiyatlarının tükənməsinə gətirib çıxarmışdır. Bu isə öz növbəsində kənd təsərrüfatına ciddi ziyan vurmaqla ərzaq istehsalının azalmasına şərait yaradır.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) 110 ölkədə yaşayan 6,1 milyard insanın 1,1 milyardının yoxsulluqla mübarizə apardığını açıqlayıb [5]. Məhz bu baxımdan, iqtisadi inkişafı azaltmaq və ya ləngitmək deyə bir çıxış yolunun əldə edilməsi düzgün yanaşma sayıla bilməz. Eyni zamanda, iqlim dəyişikliyinin təsirinə məhəl qoymamaq və iqtisadi artımı birtərəfli şəkildə həyata keçirmək bəşər cəmiyyətinin ümumi maraqlarına uyğun deyil. "Yaşıl" iqtisadiyyatın inkişafı göstərir ki, insan cəmiyyəti nəinki iqlim dəyişikliyinə cavab vermək və ekoloji mühiti qorumaq tələblərinə cavab verən, həm də iqtisadi səmərəliliyin artırılmasına və iqtisadi inkişafın təşviqinə kömək edən yeni model tapa bilər.

Qeyd edək ki, Azərbaycan müstəqilliyimizin ilk dövründən Ulu öndər H.Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ekoloji məsələlərə xüsusi önəm verilmiş və 8 iyun 1999-cu il № 678-IQ saylı "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [3].

Hazırda bütün dünyada qlobal iqlim dəyişikliyinin yaratdığı problemlərdən çıxış yolu kimi "yaşıl" iqtisadiyyat modelinin geniş yayılması müzakirə mövzusu kimi müəyyən edilmişdir. Bu məqsədlə dünya dövlətləri 2015-ci ildən bu yana qlobal iqlim dəyişikliyi ilə bağlı məsələləri müzakirə etməkdədir. Azərbaycan 2024-cü ildə GOP29 kimi beynəlxalq tədbirin keçirilməsinə ev sahibliyi edəcək. Bu, Azərbaycana göstərilən böyük inam və etimadla yanaşı ölkəmizin bu problemə biganə qalmadığını da göstərir. Məhz bu baxımdan, prezident İ. Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Eyni zamanda sərəncamda qeyd edilir ki, "Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər

isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür"[1].

Bundan başqa dövlət başçısı ətraf mühitin mühafizəsini və sağlam ekoloji mühitin yaradılmasını prioritet məsələlərdən biri kimi qarşıya məqsəd qoymuşdur. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev 2010-cu ili Azərbaycanda "Ekologiya ili" elan etmişdir. "Azərbaycan yaşıl dünya naminə" devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi də "Ekologiya ili" çərçivəsində reallaşan tədbirlərdən biri olmuşdur [4].

Dünya iqtisadiyyatında hökm sürən sürətli inkişaf prinsipləri istehsal resurslarından və asılı enerjidən istifadəni artırmaqla bərabər, ətraf mühitə və insan sağlamlığına zərərin səviyyəsini də yüksəltmişdir. Bu şəkildə iqtisadi artım cəmiyyətdə təbəqələşməni, xəstəliklərin cavanlaşmasını, orta təbəqənin sıradan çıxmasını, mədəniyyət səviyyəsinin aşağı düşməsini və s. məsələləri aktuallaşdırmaqla bir çox sosial və ekoloji problemlərin səbəbi olan iqtisadi aspektlərə üstünlük verilməsini, eyni zamanda mənəviyyat, şirin su və qida çatışmazlığının artması, biomüxtəlifliyin və meşələrin itirilməsi, iqlim dəyişikliyi və s.problemlərin dərinləşməsinə şərait yaratmışdır.

"Həyat keyfiyyəti təkcə maddi nemətlərin və xidmətlərin istehlak səviyyəsini (yaşayış səviyyəsini) deyil, həm də mənəvi ehtiyacların ödənilməsini, sağlamlığı, gözlənilən ömür uzunluğu, insanın ətraf mühit şəraiti, mənəvi-psixoloji iqlim, yaradıcılıq, psixi rahatlıq gətirən bir sosial kateqoriyadır" [6].

Azərbaycan hələ də inkişaf etməkdə olan ölkələr sırasında yer almaqla ölkədə zəif şəkildə olsa da, sənayeləşmə və nizamsız urbanizasiya prosesi gedir. Neft və qaz kimi təbii sərvətlərə malik olan ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, yoxsulluğun aradan qaldırılması, çirklənməyə nəzarət və istixana qazlarının azaldılması kimi problemlərin həll edilməsi və "yaşıl" iqtisadiyyat çərçivəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi bir hədəf kimi müəyyən edilmişdir. Bu məqsədlə aşağıda verilən üç məsələyə diqqət yetirilməsi məqsədəuyğun hesab edilir:

- iqtisadi inkişaf metodlarının transformasiyasının sürətləndirilməsi və yaşıl inkişafın fəal şəkildə təşviqi;
- müasir ekoloji inkişaf konsepsiyasının hazırlanması və yaşıl istehlakın genişləndirilməsi;
- iqtisadi qloballaşma mexanizminin təkmilləşdirilməsi və yaşıl iqtisadiyyatın inkişafı üçün əlverişli mühitin yaradılması.

İqtisadi inkişaf metodlarının transformasiyasının sürətləndirilməsi, xüsusilə, yaşıl inkişafa kömək edən sistemlərin və mexanizmlərin formalaşmasını sürətləndirmək, siyasi stimullar və institusional məhdudiyyətlər vasitəsilə yaşıl inkişafı təşviq etmək üçün bilik və təşəbbüsü artırmaq, inkişafdan asılı olmayaraq düşünülməmiş artımı təqib edən qısamüddətli fəaliyyətlərdən qaçmaq lazımdır.

Azərbaycan iqtisadiyyatının tükənmə ehtimalı yüksək olan və xammal kimi ixrac edilən neft – qaz kimi təbii resursların satışından əldə edilən gəlirlərdən asılılığının minimallaşdırılması üçün iqtisadiyyatın digər sahələrinin dayanıqlı inkişaf strategiyasının həyata keçirilməsi ölkəmiz üçün qaçılmaz seçimə çevrilib. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə üçün geniş imkanlar vardır. Bu enerji mənbələrindən istifadə aqrar sahədə rəqabətqabiliyyətli ekoloji təmiz məhsul istehsalına imkan verir. Aqrar sahədə müasir innovativ texnologiyalardan istifadə tətbiq edilən "ağıllı" kənd layihələri ətraf mühitin qorunmasında mühüm rol oynayır.

İqtisadçı alim professor İ.H.İbrahimov öz tədqiqatlarında qeyd edir ki, "təbii və metereoloji anomaliyalar, risklər nəticəsində aqrar sahə ziyan çəkir, sahənin investisiya cəlbediciliyi azalır. Torpağın və suyun çirkləndirilməsi, pestisidlərdən düzgün istifadə edilməməsi, köhnəlmiş texnologiyaların tətbiqi ətraf mühitə, ekologiyaya ziyan vurur, nəticədə qida məhsullarının ekoloji təhlükəsizliyi azalır. Bütün bunlar kənd təsərrüfatı məhsullarının və ərzağın keyfiyyətinə və insan sağlamlığının mühafizəsinə diqqətin müntəzəm olaraq artırılmasını tələb edir" [4, s. 107]

"İqlim-ağıllı kənd təsərrüfatına transformativ investisiya ABŞ-a xalis sıfır iqtisadiyyata nail olmaq üçün torpaqlarımızın potensialını açmaq" adlı hesabatında qeyd edilir ki, "Kənd təsərrüfatı xalis sıfır iqtisadiyyata keçiddə əsas imkan yaradan sahə olmaqla yanaşı, həm də ətraf mühitə və cəmiyyətə fayda verən iqtisadi gəlir əldə etmək istəyənlər üçün mühüm portfel investisiya fürsətidir. 2025-ci ilə qədər iqlimə uyğun ağıllı kənd təsərrüfatı təcrübələrinin geniş şəkildə tətbiqi ABŞ

kənd təsərrüfatının ABŞ-ın ümumi istixana qazı emissiyalarına töhfəsini yarıdan çox olmaqla, 9,9%-dən 3,8%-ə qədər azalda bilər" [7, s. 4].

Ölkə iqtisadiyyatı üçün mühüm olan və yaşıl dünya naminə davamlı inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi prosesində, şübhəsiz ki, kənd təsərrüfatının davamlı inkişaf potensialının təkmilləşdirilməsi və kənd yerlərinin davamlı inkişafının təşviq edilməsi bu strategiyanın mühüm tərkib hissəsi kimi nəzərə alınmalıdır. Azərbaycan kənd təsərrüfatı ekoloji mühitinin ümumilikdə ətraf mühitə zərər verməkdə, daha doğrusu, istilik effekti yaradan qazların atılmasında energetika sahəsindən sonra ikinci yerdə gəlir və xüsusi çəkisi 2021-ci ildə 11.5% (7.6 milyon ton CO2 ekvivalentində) təşkil etmişdir . Üçünci yerdə isə sənaye sahəsi gəlir. İnkişaf etmiş ölkələrdə isə kənd təsərrüfatı üçüncü yerdə gedir. Bu isə yuxarıda qeyd etdiyimiz kimi sənaye sahəsinin zəif inkişafı ilə bağlıdır [8].

Apardığımız təhlilləri ümumiləşdirərək qeyd edə bilərik ki, "yaşıl" iqtisadiyyatın inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün kənd təsərrüfatının və kənd yerlərinin davamlı inkişafı ölkənin ərzaq təhlükəsizliyinin və milli iqtisadiyyatın davamlı inkişafının əsas təminatçısıdır. Azərbaycanın kənd təsərrüfatının və kənd yerlərinin müasir tələblərə cavab verən səviyyədə inkişafı davamlı inkişaf yolunun müəyyən edilməsini şərtləndirir. Burada əsas məqsəd kənd təsərrüfatı istehsalının təhlükəsiz və ətraf mühitə zərər vermədən sabit artımını qorumaq, ərzaq istehsalı potensialını yaxşılaşdırmaq və ərzaq təhlükəsizliyini təmin etmək, kənd iqtisadiyyatını inkişaf etdirmək, fermerlərin gəlirlərini artırmaq, kənd yoxsulluğunu və geriliyi aradan qaldırmaqdır. Kənd təsərrüfatının ekoloji mühitini qorumaq və yaxşılaşdırmaq, insanların yaxşı yaşaması üçün artan tələbatını ödəmək, təbii ehtiyatlardan, xüsusən də bioloji resurslardan və bərpa olunan resurslardan səmərəli və davamlı istifadə etmək tələb olunur. Onu da qeyd edək ki, "yaşıl" iqtisadiyyat modelinin tətbiqi ilə yeni iqtisadi modelə keçid zərurəti şübhəsizdir. Ancaq burada hesab edirik ki, diqqətli olmaq, ətraflı elmi tədqiqatlar aparmaq, qərarların qəbul edilməsində ehtiyatla davranmaq tələb olunur. Əks halda, ekoloji fəlakətlə yanaşı, böyük maliyyə itkiləri və ictimai-siyasi problemlər yaşanması təhlükəsi ilə üzləşmək olar. İnkişaf etmiş ölkələrin, xüsusi ilə Avropa, ABŞ, Yaponiya və Çin kimi ölkələrin "yaşıl" iqtisadiyyata keçidinin əsas mərhələlərini həyata keçirdiyi ekoloji təşəbbüslər nümunəsində öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/62737
2. Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/3852
3. https://president.az/az/articles/view/738
4. İbrahimov. İ.H., Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. (Monoqrafiya), "Kooperasiya" nəşriyyatı, Bakı-2022, 240 s.
5. https://www.trt.net.tr/azerbaycan/dunya/2023/10/16/1-1-milyard-insan-yoxsulluqla-mubariz-aparir-2051410
6. Современный экономический словарь / Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б. 6-е изд., перераб. и доп. М., 2011. 512 с
7. Transformative Investment in Climate-Smart Agriculture Unlocking the potential of our soils to help the U.S. achieve a net-zero economy, FEBRUARY 2021.
8. https://www.stat.gov.az/source/balance_fuel/

***Эльнур Тахир оглы Алекберов***
***Диссертант Центра Аграрных Исследований***

## Роль зеленой экономики в повышении уровня жизни населения

***Резюме***

Основная цель исследования – изучить роль и значение “зеленой” экономики в повышении уровня жизни населения Азербайджана. Оригинальность и научная новизна исследования заключается в изучении стратегии развития “зеленой” экономики, выявлении особенностей развития предпринимательских фермерских хозяйств и предприятий, работающих в сельском хозяйстве, по данной модели.

***Ключевые слова: зеленая экономика, население, уровень жизни, доходы, возобновляемые источники энергии, окружающая среда.***

***Elnur Tahir Alekberov***
***Ph.D student of Agricultural Research Center***

## The role of the green economy in increasing the living standards of the population

***Summary***

Purpose of the study. The main goal of the research work is to study the role and significance of the “green” economy in improving the living standards of the population of Azerbaijan. The originality and scientific novelty of the research lies in the study of the development strategy of the “green” economy, identifying the features of the development of entrepreneurial farms and enterprises operating in agriculture according to this model.

***Key words: green economy, population, living standards, income, renewable energy sources, environment.***